

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 fevral 2023-cü il №9 (2721) https://mod.gov.az Qiyməti 30 qəpik

## 2 fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə

Hörmətli gənclər!

Sizi 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhvali-ruhiyyə və gələcək işlərinizdə uğurlar arzulayıram.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərimizə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirildiyi günün ölkəmizdə 1997-ci ildən etibarən Gənclər Günü kimi qeyd olunması ənənəsi bir daha təsdiq edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin və insan kapitalının məqsədyönlü inkişafının əsas istiqamətlərindəndir. Ötən müddətdə apardığımız işlər gənclərin maraqlarının və ahəngdar inkişafının təmin olunması üçün lazımi şərait yaradılmasını sürətləndirmiş, onların təşkilatlanmasında və ictimai-siyasi fəallığının artmasında əhəmiyyətli rol oynamışdır.

Göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda milli məfkurəyə sadiq və dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan bir nəsil yetişmişdir. Gənclərimiz bu gün həyatımızın bütün sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi gücünün, hərbi qüdrətinin artması və siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işində qüvvə və bacarığını əsirgəmir, zəngin mədəni irsimizin qorunub saxlanması və təbliği yolunda mühüm addımlar atırlar.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda, onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır.

Əminəm ki, Azərbaycan gəncliyi tariximizin bu yeni dövründə də ölkəmizin gələcək inkişafına layiqli töhfələr verəcək, yeni-yeni nailiyyətləri ilə bizi sevindirəcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 fevral 2023-cü il

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Gəncləri Günü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan gənclərinə təbriklərini çatdıran Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Qoy hər bir gəncimiz öz uğurları, qələbə və nailiyyətləri ilə xalqımızı hər zaman qürurlandırsın!".

# Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana rəsmi səfəri



*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Rumıniya Prezidenti Klaus Yohannisin fevralın 2-də rəsmi qarşılanma mərasimi olub.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Rumıniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniya Prezidenti Klaus Yohannisi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Rumıniya Prezidentinə raport verib.

Prezident Klaus Yohannis Azərbaycan əsgərlərini salamlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Klaus Yohannis fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Rumıniyanın və Azərbaycan Respublikasının Dövlət Himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyəti Rumıniya Prezidentinə, Rumıniya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Klaus Yohannisin qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

Fevralın 2-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə təkbətək və geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə keçirilən görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Cənab Prezident, hörmətli Rumıniya nümayəndə heyətinin üzvləri.

Bir daha Azərbaycana xoş gəlmisiniz.

Biz indicə cənab Prezidentlə ikitərəfli gündəliyimizin geniş əhatəli məsələləri ilə bağlı çox yaxşı müzakirələr apardıq və bir daha əlaqələrimizin strateji əhəmiyyətini təsdiqlədik. Strateji tərəfdaşlar olaraq biz irəliyə doğru gedirik. Mənim Buxarestə səfərimlə bağlı yaxşı xatirələrim var və sözsüz ki, Buxarestdə imzalanmış sənəd, həqiqətən də, bizim qarşımızda yeni perspektivlər açır. Biz gələcək addımlarımızı geniş şəkildə müzakirə etdik və indi nümayəndə heyətləri üzvlərinin iştirakı ilə bunu davam etdirəcəyik. Eyni zamanda, biz artıq təbii qazın nəqli məsələsində tərəfdaş olmuşuq və bu da bizim əməkdaşlığımızda mühüm mərhələdir. Lakin, birmənalı olaraq, biz əməkdaşlığımızın daha geniş miqyasını arzu edirik, nəinki enerji, o cümlədən ticari işbirliyimizlə bağlı məsələləri də əhatə etməsini istəyirik.

Birgə iqtisadi komissiya ötən il görüşüb və bu il görüşəcək. Beləliklə, biz xüsusilə enerji gündəliyimizlə bağlı əməkdaşlıq üçün geniş perspektivləri nəzərə alaraq komissiyanın işini intensivləşdirəcəyik. Bütün digər sahələrdə ölkələrimiz arasındakı əlaqələr çox yaxşıdır. Əlbəttə ki, enerji layihələri tərəfdaşlığımızı gücləndirəcək.

Cənab Prezident və nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz. Ölkəmizə səfərinizə görə təşəkkür edirəm. Sizi Azərbaycanda qarşılamaq böyük şərəfdir. Əminəm ki, səfər bizim gələcək əməkdaşlıq planlarımız üçün çox əhəmiyyətli olacaq. Bir daha xoş gəlmisiniz.

Rumıniya Prezidenti **Klaus Yohannis** deyib:

- Çox sağ olun cənab Prezident.

Hörmətli nümayəndə heyətlərinin üzvləri.

Həqiqətən, bizim demək olar ki, uzun müzakirəmiz oldu. Lakin hesab edirəm ki, bu, mütləq şəkildə zəruri idi.

Çünki hər ikimiz tərəfdaşlığımızı daha da gücləndirmək əzmindəyik və daha yaxşı nəticələr əldə etmək istəyirik. Müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi apardıq və mediaya təşəkkürümüzü bildirdikdən sonra mən bu məsələlərin bəzilərini daha dərindən nəzərdən keçirə biləcəyəm.

Heyətlərimizlə müzakirə etmək istədiyimiz iki və ya üç təfərrüatı nəzərdə tuturam.

**(Ardı 2-ci səhifədə)**

# Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana rəsmi səfəri



(Əvvəli 1-ci səhifədə)

* * *

Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Klaus Yohannis mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli cənab Prezident.
Hörmətli qonaqlar.
Xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlamaq istərdim, Azərbaycana xoş gəlmisiniz. Biz keçən ay Sizinlə Buxarestdə görüşmüşdük və şadam ki, bir aydan sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu, onu göstərir ki, ölkələrimiz arasında yüksək səviyyəli siyasi dialoq çox fəaldır və müzakirə olunan məsələlər hər iki ölkənin maraqlarına cavab verir.

Rumıniya və Azərbaycan uzun illər ərzində əlaqələrini strateji tərəfdaşlıq əsasında inkişaf etdirirlər. Strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır. Bu gün müzakirə olunan və həll etdiyimiz məsələlər, doğrudan da, strateji əhəmiyyət daşıyır. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu bir daha göstərir.

Eyni zamanda, ticari-iqtisadi sahələrdə də nəticələr var. Ticarət dövriyyəsi iki dəfədən çox artsa da, hələ ki, istədiyimizə uyğun deyil. Çünki ticarət dövriyyəmizin böyük hissəsini Azərbaycandan Rumıniyaya ixrac edilən xam neft təşkil edir. Biz ticarət dövriyyəmizin şaxələndirilməsi üçün əlavə addımlar atacağıq və ümid edirəm ki, hökumətlərarası komissiyanın fəaliyyəti məhz bu məqsədi güdəcək. Komissiya keçən il Bakıda görüşüb, bu il isə Buxarestdə görüşəcək. Beləliklə, ticari-iqtisadi sahədə də yaxşı nəticələr ola bilər.

Energetika, əlbəttə ki, təkcə Rumıniya-Azərbaycan əlaqələrinin yox, bütövlükdə dünya gündəliyinin mərkəzində olan məsələdir. Uzun illər ərzində Azərbaycanın neft şirkəti SOCAR Rumıniyada fəaliyyət göstərir, 70-dən çox yanacaqdoldurma stansiyası və bir neçə yanacaq deposu var. Yəni, SOCAR-ın Rumıniyada fəaliyyətinin artıq çox gözəl tarixçəsi vardır.

İndi isə bizim əməkdaşlığımız yeni mərhələyə çıxır. Buxarestdə olarkən təbii qazın Rumıniyaya çatdırılmasına



dair saziş imzalanmışdır. Beləliklə, Azərbaycan qazı Avropa məkanında yeni ünvana çatacaq və bununla paralel olaraq, Rumıniya imkanlarından istifadə edərək digər Avropa ölkələrinə Azərbaycan qazı nəql ediləcəkdir.

Biz isə iki il bundan əvvəl Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP layihəsini uğurla icra etdik və Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşına çevrildik. Bunu Avropa İttifaqına rəhbərlik edən şəxslər qeyd edirlər. Keçən il Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış təbii qaz üzrə strateji Tərəfdaşlıq Memorandumu bunu bir daha göstərir. Biz öz qaz ixracatımızı sürətlə artırırıq və ilk növbədə, Avropa məkanına.

Hörmətli qonağımız sabah Azərbaycanda keçiriləcək Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının açılış mərasimində iştirak edəcəkdir. Prezident Yohannisin açılışda iştirakı bu tədbirin böyük əhəmiyyətindən xəbər verir. Əlbəttə, Buxarestdə bizim əsas tədbirimiz yaşıl enerji ilə bağlı idi. Bu istiqamətdə də çox önəmli addım atılmışdır və sabah yaşıl enerji üzrə birinci Məşvərət Şurası keçiriləcək. Bu, çox strateji bir layihədir, böyük sərmayə tələb edən layihədir, bir neçə ölkəni, iki dənizi birləşdirən bir layihədir. Əlbəttə, ümid edirik ki, sabahkı birinci rəhbər komitənin toplantısı gələcək birgə fəaliyyət üçün bir yol xəritəsini də təklif edəcək.

Bir sözlə, biz çox önəmli strateji tərəfdaşlıq platformuna əsaslanaraq bu gün müasirliyə doğru, inkişafa doğru, enerji təhlükəsizliyinə doğru çox önəmli addım atmış olduq. Eyni zamanda, digər sahələr də prioritet təşkil edə bilər, o cümlədən nəqliyyat sahəsi. Bakı və Konstansa limanları arasındakı əməkdaşlığın dərinləşdirilməsi üçün çox yaxşı imkanlar var. Əminəm ki, həm qaz, həm yaşıl enerji dəhlizləri, o cümlədən nəqliyyat sahəsində də gözəl nəticələrə gətirib çıxaracaqdır.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Sizə "xoş gəlmisiniz" deyirəm.

* * *

Sonra Rumıniya Prezidenti bəyanatla çıxış edib.



**Prezident Klaus Yohannisin bəyanatı**

- Cənab Prezident, təşəkkür edirəm.

Bu gün burada olmağımdan böyük şərəf duyuram. Bu, mənim ölkənizə ilk rəsmi səfərimdir. Cənubi Qafqaz bölgəsi həm Rumıniya, həm Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir. Dəvətə və qonaqpərvərliyə görə cənab Prezident Əliyevə təşəkkür edirəm.

Azərbaycan Cənubi Qafqaz bölgəsində ilk ölkədir ki, Rumıniya onunla əməkdaşlığını strateji tərəfdaşlıq səviyyəsinə qaldırıb, bu, 2009-cu ilə təsadüf edir. Bununla yanaşı, bizim ölkəmiz Avropa İttifaqının ilk üzvüdür ki, Azərbaycanla strateji tərəfdaşlıq haqqında belə bir sənəd imzalayıbdır.

Bu gün cənab Prezident İlham Əliyevlə biz mühüm siyasi məsləhətləşmələr apardıq. Sabah mən cənab Prezidentlə birlikdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında iştirak edəcəyəm.

Rumıniya ilə Azərbaycan 30 il ərzində gözəl diplomatik və siyasi münasibətlərə malikdir. 2022-ci ildə bunun çox güclü bir dinamikası baş verdi və cənab Prezident Buxarestə səfər etdi. Həmin səfər zamanı biz dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş imzaladıq.



Biz Rumıniya olaraq ölkələrimiz arasında strateji tərəfdaşlığı dərinləşdirməyə və mühüm strateji əhəmiyyətə malik regional layihələrin icrasına hazırıq. Biz enerji, ticarət, sərmayə qoyuluşu, rəqəmsallaşma və kənd təsərrüfatı sahələrində əməkdaşlığa hazırıq.

Mən cənab Prezidentə təşəkkür edirəm ki, Azərbaycan yanvar ayından etibarən Rumıniyaya əlavə qaz həcminin nəqlinə başlayıb. Sabah hər iki ölkənin dövlət neft şirkəti "Romqaz" və SOCAR yeni sazişə imza atacaqlar. Həmin sazişə əsasən, 2023-2024-cü illərdə bizim ölkəyə əlavə qaz nəql ediləcək. Hər ikisi - Cənub Qaz Dəhlizi, o cümlədən Azərbaycanda bərpaolunan enerji resurslarından istehsal edilmiş elektrik enerjinin nəqli üçün çəkiləcək gələcək dənizaltı kabel və nəhayət, Avropa Komissiyasının dəstəklədiyi layihələr Avropa İttifaqında enerji təhlükəsizliyinin təmin edilməsinə nəzərəçarpan töhfə verəcək. Bu məsələləri biz cənab Prezident Əliyevlə müzakirə etdik.

Rəqəmsallaşma layihələri də bizim üçün maraq kəsb edir. Rumıniya ilə Azərbaycan bu əməkdaşlığı və strateji təşəbbüsləri Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətində inkişaf etdirmək niyyətindədir. Biz bunu cənab Prezidentlə Buxarestdə də müzakirə etmişik.

Cənab Prezident, Rumıniya Azərbaycanın səmimi və əsl dostudur. Rumıniyanın mövqeyi hər zaman bəlli olub. Biz ölkələrin ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəkləmişik.

Sonuncu məsələlərdən biri də Rusiyanın Ukraynaya qarşı təcavüzünü və Qara dəniz hövzəsi regionundakı vəziyyəti cənab Əliyevlə müzakirə etdik. Belə bir mürəkkəb vəziyyətdə həmrəyliyin vacibliyini vurğuladıq və bu məsələlərdə Azərbaycanın da mövqeyini yüksək qiymətləndirdik. Bununla da regional əməkdaşlıq, mənbə və marşrutların şaxələndirilməsi Cənub Qaz Dəhlizi kimi layihələrin təməl prinsipinə əsaslanır. Biz Azərbaycanın etibarlı tərəfdaş olaraq belə layihələri gələcəkdə də irəli sürəcəyinə əminik.

Prezident **İlham Əliyev**: Çox sağ olun.

* * *

Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rumıniya Prezidenti Klaus Yohannisin şərəfinə rəsmi ziyafət verilib.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan və İsrail müdafiə nazirləri arasında telefon danışığı olub

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, fevralın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantın təşəbbüsü ilə telefon danışığı olub.

Azərbaycan-İsrail əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayan Y.Qallant ölkələrimiz arasında mövcud münasibətlərdən məmnunluğunu ifadə edib.

General-polkovnik Zakir Həsənov Y.Qallantı İsrail Dövlətinin müdafiə naziri təyin olunması münasibətilə təbrik edərək ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın genişlənəcəyinə əminliyini bildirib.

Danışıq zamanı tərəflər regional təhlükəsizlik məsələlərini, eləcə də ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

# Azərbaycanın müdafiə naziri "Qış təlimi-2023" təlimini izləyib





Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə qardaş ölkədə səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "Qış təlimi-2023" beynəlxalq təlimi çərçivəsində "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə müdafiə nazirlərinə "Qış təlimi-2023" təlimi barədə raport verilib. Ordu rəhbərləri yeni nəsil texnika və avadanlıqlarla tanış olub, təlimin maddi-texniki təminat hissəsinə baxış keçiriblər.



Sonra Azərbaycanla yanaşı iştirak edən digər 17 ölkənin hərbi qulluqçuları sərt iqlim və çətin relyef şəraitində müxtəlif epizodlar üzrə tapşırıqların icrasını nümayiş etdiriblər.

Yekunda Türkiyənin milli müdafiə naziri H.Akar, Azərbaycanın müdafiə naziri general-polkovnik Z.Həsənov, Gürcüstanın müdafiə naziri C.Burçuladze müşahidəçilər və digər rəsmi qonaqlar qarşısında çıxış ediblər.

Qeyd edək ki, cari ilin 18 yanvar - 03 fevral tarixlərində keçirilən təlimdə ölkəmizi təmsil edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları yüksək peşəkarlıq göstəriblər.

## Müdafiə nazirinin müavini Türkiyənin Gəncə şəhərindəki Baş konsulu ilə görüşüb

*Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, fevralın 1-də müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı general-leytenant Ənvər Əfəndiyev Türkiyə Respublikasının Gəncə şəhərinə yeni təyin olunan Baş konsulu Recep Öztop ilə görüşüb.*



General-leytenant Ə.Əfəndiyev qonağı salamlayaraq onu yeni təyinatı ilə bağlı təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Müdafiə nazirinin müavini Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu xüsusi vurğulayıb.

R.Öztop səmimi qəbula görə minnətdarlığını ifadə edib, ikitərəfli əməkdaşlıq elaqələrinin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran mövzulara dair fikir mübadiləsi aparılıb.

## Mühəndis təminatı üzrə tədbirlərin icrası plana uyğun davam etdirilir



Çətin relyefli və dağlıq ərazilərdə dislokasiya olunan Azərbaycan Ordusunun hərbi hissələrində istənilən hava şəraitində xidməti-döyüş fəaliyyətinin təşkili məqsədilə zəruri tədbirlər həyata keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində təxliyə yollarının daim işlək vəziyyətdə saxlanılması, avtomobil və döyüş texnikası kalonlarının təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə cari yanvar ayı ərzində Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində ümumilikdə 3600 km-dək yol qar örtüyündən təmizlənib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər plana uyğun davam etdirilir.

## Pilotsuz uçuş aparatları kursunu bitirənlərə sertifikatlar təqdim olunub

*"N" hərbi hissəsində "Pilotsuz uçuş aparatlarının (PUA) operator-pilot və texnik kursu"nu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunub.*

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, tədbirdə çıxış edənlər PUA-nın İkinci Qarabağ müharibəsində effektiv tətbiqindən danışıblar, kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçuları təbrik edərək, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.



Bildirilib ki, kurs zamanı dinləyicilərə PUA-nın söküllüb-yığılması, praktiki uçuşların icrası, həmçinin uçuş və kəşfiyyatın aparılmasının növləri üzrə məşğələlər keçirilib. Bununla yanaşı, hərbi qulluqçular müxtəlif ərazi relyeflərində hava kəşfiyyatı apararaq şərti düşmənin yerüstü hədəflərinin koordinatlarının təyin edilməsi və əldə edilən məlumatların idarəetmə məntəqələrinə ötürülməsi üzrə nəzəri və praktiki vərdişləri mənimsəyiblər.



Qeyd edək ki, kurs zamanı dərslər Vətən müharibəsi və son döyüş əməliyyatlarında qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla keçirilib.

# Horadiz şəhərində Azərbaycan gənclərinin forumu keçirilib





*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Horadiz şəhərində "Heydər Əliyev ideyalarına sadiqik!" devizi altında Azərbaycan Ordusu gənclərinin forumu keçirilib.*

Forumda Müdafiə Nazirliyinin rəsmiləri, Füzuli Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələri, digər hərbi strukturlardan seçilən ordu gəncləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Horadiz şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət olunaraq önünə güllər düzülüb, xatirəsi ehtiramla yad edilib.

Rəsmi qonaqlar Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Əsgərə məktub" layihəsi çərçivəsində Vətən müdafiəçilərinə məktublar ünvanlayıblar.

Heydər Əliyev Mərkəzində keçirilən ordu gəncləri forumu başlamazdan əvvəl ölkəmizdə gənclər siyasətinin banisi, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan gənclərinə müraciəti səsləndirilib.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun iştirakçısı Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani 27 il öncə Dahi Liderimizin iştirakı ilə keçirilən və iki gün davam edən həmin forumda unudulmaz Heydər Əliyevin gənclərin fəaliyyət proqramına çevrilən tarixi nitqi barədə danışıb, Ulu Öndərlə bağlı xatirələrini





bölüşüb və foruma moderatorluq edəcək ordu gənclərinin nümayəndəsi, Hərbi Dəniz Qüvvələrinin zabiti ədliyyə baş leytenantı Rüstəm Əliyevi tribunaya dəvət edərək estafeti gəncliyin nümayəndəsinə verib.

Yaşlı nəsildən estafeti qəbul edən gənc zabit ordu gənclərinin göstərilən etimadı doğruldacaqlarına və bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərinə söz verərək deyib: "Bu gün hər bir Azərbaycan gənci, eləcə də ordu gəncləri üçün əlamətdardır. Biz Ulu Öndərimizin təsis etdiyi 2 Fevral - Azərbaycan Gəncləri Gününü üçüncü ildir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərin yaratdığı böyük Qələbə əhval-ruhiyyəsi, döyüş və mənəvi-psixoloji hazırlıqda, təhsildə və təlimlərdə əldə etdiyimiz uğur və nailiyyətlərlə qarşılayırıq. Dövlət rəhbərliyi və xalqımız əmin ola bilərlər ki, qalibiyyət bayrağımız etibarlı əllərdədir. Azərbaycan gəncliyi, o cümlədən böyük qüvvə olan ordu gəncləri Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində məğrur dayanıb və Müzəffər Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdırlar".

Forumun proqramı və reqlament elan edildikdən sonra fəxri qarovul hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın sədaları altında Şuşaya sancılan Zəfər bayrağını salona gətirib.

Ümummilli Lider Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət Himni ifa olunub.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev forum iştirakçılarını rayon sakinləri adından salamlayaraq deyib: "Azərbaycan Ordusu gənclərinin forumu üçün məkan olaraq Horadiz şəhərinin seçilməsi heç də təsadüfi deyil. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, Ulu Öndər Heydər Əliyevin siyasətini görürük". Çox da uzaq olmayan tariximizə nəzər salsaq, görəcəyik ki, 1993-cü ilin oktyabrında tam işğala məruz qalan Füzuli rayonunun 22 yaşayış məntəqəsi, o cümlədən, Horadiz qəsəbəsi Ulu Öndər






Heydər Əliyevin qətiyyəti, böyük sərkərdə məharəti, döyüş bölgəsinə gələrək burada güclü ruh yüksəkliyi yaratması nəticəsində erməni işğalından azad edilib".

İcra başçısı qeyd edib ki, hər bir Füzuli rayon sakini, eləcə də hər bir horadizli Ümummilli Lider Heydər Əliyevi, xalqımızın xilaskar oğlunu böyük ehtiramla yada salır və onu minnətdarlıqla xatırlayır.

Diqqətə çatdırılıb ki, Heydər Əliyevin Ali Baş Komandanlığı, xeyir-duası ilə başlanan Horadiz əməliyyatı hərb tariximizə şanlı səhifə kimi yazılıb. Bu əməliyyatda Azərbaycan Ordusu əsl qəhrəmanlıq nümunələri göstərib. Üzərində "Heydər Əliyev uğrunda!" sözləri yazılmış tank və digər zirehli texnikalar, artilleriya vasitələri ilə döyüş meydanına atılan igidlərdən neçəsi şəhid olsa da, əsgərlərimiz ruhdan düşməyib, döyüşçü yoldaşlarının intiqamını alaraq düşmənə tutarlı zərbələr vurublar.

1994-cü il yanvarın əvvəllərində, artıq Horadiz də daxil olmaqla, 22 yaşayış məntəqəsi azad edilib və yüz hektarlarla ərazi tam nəzarətə götürülüb.

İşğaldan azad edilən kəndlər yenidən qurulub, çadır şəhərciklərində, yataqxanalarda, vaqonlarda məskunlaşmış məcburi köçkünlər öz yurdlarına qayıdıblar. Ulu Öndərin diqqət və qayğısı ilə Horadiz qəsəbəsində quruculuq işlərinə start verilib.

Diqqətə çatdırılıb ki, dünyaşöhrətli Dahi Lider Heydər Əliyev əbədiyyətə qovuşduqdan sonra onun axıra çatdıra bilmədiyi arzuları, planları Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident İlham Əliyev həyata keçirib. Qısa zaman ərzində Horadiz günü-gündən çiçəklənən bir qəsəbəyə çevrilib. Füzuli Rayon İcra Hakimiyyəti daxil olmaqla, rayonun əsas infrastrukturu Horadiz qəsəbəsinə köçürülüb, yenidən qurulan qəsəbə rayonun mərkəzi kimi şöhrətlənib.

Prezident İlham Əliyevin 2007-ci il 23 oktyabr tarixli Sərəncamı ilə Horadiz qəsəbəsinə şəhər statusu verilib.

Horadiz bu gün dünyanın ən təmiz, ən gözəl, cazibədar və inkişaf etmiş şəhərləri ilə müqayisə edilə biləcək müasir şəhərə çevrilib.

Horadiz Ulu Öndər Heydər Əliyevin ideyalarına sədaqətin şəhəridir. Horadiz Aprel döyüşləri zamanı ordumuza dayaq olan, Azərbaycan əsgərlərini Lələtəpə uğrunda döyüşlərə yola salan və xalqımıza ilk qələbə sevincini yaşadan Aprel Zəfərinin qəhrəmanlarına, şəhidlərinə ilk qucaq açan şəhərdir. Vətən müharibəsində möhtəşəm Zəfərə gedən yollar da Horadizdən başlanıb.

Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov forum iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayıb və müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini oxuyub.

Müdafiə nazirinin təbrikində deyilir:

"Hörmətli Forum iştirakçıları!

2 Fevral - Azərbaycanda Gənclər Günüdür. Bu gün, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin 1997-ci il 1 fevral tarixli Sərəncamı ilə təsis edilib. Bu, Ulu Öndərin gənclərə və gəncliyə göstərdiyi diqqət və qayğının daha bir parlaq nümunəsidir.

Bütün Azərbaycan gəncləri kimi Azərbaycan Ordusunda xidmət edən gənclər də respublikamızda dövlət gənclər siyasətinin əsasını qoymuş, özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi ilə adını tariximizə əbədi həkk etdirmiş Ümummilli Lider Heydər Əliyevə minnətdardır.

Müasir Azərbaycan Ordusunun baş memarı Ulu Öndər Heydər Əliyevdirsə, bu ordunun qalib, qüdrətli bir orduya çevrilməsi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır".

Təbrikdə qeyd olunur ki, ordumuzda döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasını təmin edən vəzifələrdə xidmət edənlərin 70 faizindən çoxu gənclərdir. Böyük qüvvə olan ordu gəncləri peşəkardırlar, döyüş və mənəvi-psixoloji hazırlıqları, vətənpərvərlik hissləri çox yüksəkdir. Onlar Zəfər tariximiz olan İkinci Qarabağ müharibəsində əsl qəhrəmanlıq, şücaət nümunələri göstəriblər. Respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, tarixi torpaqlarımızın işğaldan azad olunması zamanı döyüş əməliyyatlarında düşmənin canlı qüvvəsi və döyüş texnikalarının məhv edilməsində fədakarlıq, rəşadət nümayiş etdirərək vəzifə borclarını ləyaqətlə və vicdanla yerinə yetiriblər.

Forum iştirakçılarını 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə bir daha təbrik edən müdafiə naziri əmin olduğunu bildirib ki, ordu gəncləri Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq bundan sonra da Müzəffər Ali Baş Komandanın hər bir əmrinə hazır olacaq və qarşıya qoyulan bütün əmr, göstəriş və tapşırıqları uğurla yerinə yetirəcəklər.

**(Ardı 5-ci səhifədə)**

# Horadiz şəhərində Azərbaycan gənclərinin forumu keçirilib

(Əvvəli 4-cü səhifədə)

Heydər Əliyev adına Hərbi İnstitutun kursantı Bayram Xəlilzadə, Raket və Artilleriya Qoşunlarının zabiti kapitan Əlibəy Novruzbəyov, Hərbi Hava Qüvvələrinin zabiti baş leytenant Rizvan Məmmədov, Hərbi Dəniz Qüvvələrinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Qafqaz Hüseynzadə, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Rəvan Lalayev və başqaları xidmət etdikləri hərbi hissələrin uğurlarından, döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan, düşmən təxribatlarının qarşısını vaxtında



və qətiyyətlə aldıqlarından, hərbi təhsil sahəsində aparılan islahatlardan böyük həvəslə söhbət açıb, bundan sonra da Müzəffər Ali Baş Komandanın əmrlərinə hər an hazır olduqlarını bəyan ediblər.

Oğlu Cahidlə birlikdə tribunaya qalxan şəhid Cavid Manafovun anası Natəvan xanım forum iştirakçılarını şəhid anaları adından salamlayıb. Hər bir Vətən əsgərinin simasında ciyərparəsi igid Cavidin surətini gördüyünü deyib. Ananın "Oğul düşmən çəpəridir, Vətən uğrunda şəhid olanlar cismən bizi tərk edirlər, onlar ruhən yaşayırlar. Siz gənclər şəhid oğulların qisasını, intiqamını döyüş meydanlarında vuruşaraq aldınız. İnanıram ki,



müharibə yollarında ömrü yarıyolda qırılan şəhid övladlarımızın yarımçıq ömürlərini də öz ömrünüzə qataraq yeni-yeni zəfərlər qazanacaq, biz anaları yenə də sevindirəcəksiniz" - fikirləri ordu gənclərinə duyğulu anlar yaşadıb. Salonda "Şəhidlər ölməz, Vətən bölünməz!" nidaları yüksəlib.

Ordu gənclərinin yaxın dostu, "Əsgərə xatirə kitabı" layihəsinin müəllifi Nuranə Şıxəliyeva forum iştirakçılarını Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edərək ordu ilə xalqın birliyindən, həmrəyliyindən danışıb. Ulu Öndər Heydər Əliyevə istinadən qeyd edib ki, ordu ilə xalqın birliyi həm ordunu, həm də xalqı güclü, qüdrətli edir. Qarşımızda duran əsas vəzifələrdən biri də ordu ilə xalqın sağlam mənəvi birliyini yaratmaqdır. Bu birlik isə bu gün daha yüksək səviyyədədir, daha möhkəmdir. 44 gün davam edən Vətən müharibəsində









qazandığımız Qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, dəmir yumruğunun, Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin, dövlətimizin iqtisadi gücünün, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin şücaətinin, cəsarətinin, eləcə də xalq-ordu birliyinin, həmrəyliyinin nəticəsidir.

Vətən Müharibəsi Qəhrəmanı kapitan Ramazan Hudulov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Azərbaycan Ordusu gənclərinin forumu iştirakçıları adından müraciəti nəzərə çatdırıb. Həmin müraciətdə deyilir:

"Möhtərəm Prezident, Ali Baş Komandan!



Biz Azərbaycan Ordusu gənclərinin forum iştirakçıları Sizi salamlayır, Azərbaycan xalqı və dövləti naminə yorulmaz fəaliyyətinizdə daha böyük müvəffəqiyyətlər arzulayırıq. Müstəqil Azərbaycan Respublikasının iqtisadi, siyasi, mədəni və ordu quruculuğu sahəsində son 20 ildə qazandığı uğur və nailiyyətlərdə, ölkəmizin nüfuzunun dünyada daha da artmasında Sizin gərgin əməyiniz durur. Biz ordu gəncləri də bunu görür və yüksək dəyərləndiririk. Siz hər bir azərbaycanlının Prezidenti olmaqla, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirirsiniz. Sizin rəhbərliyinizlə qəbul edilmiş









dövlət proqramlarının, Azərbaycan gənclərinin inkişaf strategiyası və digər fərman və sərəncamların verdiyi imkanlardan Azərbaycan Ordusunun əsasını təşkil edən biz gənclər də bəhrələnirik. Ordumuzun qüdrətlənməsi, hərbi qulluqçuların xidmət şəraitinin daha da yaxşılaşdırılması, sosial problemlərimizin müsbət həlli döyüş ruhumuzu və qələbə əzmimizi artırır. Şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirənlərə dünyanın heç bir ölkəsində rast gəlinməyən diqqət və qayğı məhz Azərbaycanda göstərilir. Bütün bunlara görə Vətən əsgəri Sizə minnətdardır,







Möhtərəm Prezident!

Biz Aprel Zəfərini, Günnüt Zəfərini və İkinci Qarabağ müharibəsində qazandığımız möhtəşəm Zəfəri məhz Sizin rəhbərliyiniz, Ali Baş Komandanlığınız altında qazanmış və Azərbaycanın şanlı hərb tarixinə yazmışıq.

2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə tarixi nitqlərinizdən birində qeyd edirsiniz ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda həmişə canından keçməyə hazırdır.

Müzəffər Ali Baş Komandan! Əmin ola bilərsiniz ki, biz, həqiqətən, Vətən uğrunda, torpaq uğrunda canımızdan keçməyə həmişə hazırıq. Bir daha əmin ola bilərsiniz ki, Azərbaycan əsgəri 2023-cü il "Heydər Əliyev İli"ndə də Sizin rəhbərliyinizlə daha böyük uğurlara imza atacaqdır!.."



Forum iştirakçıları müraciəti ayaq üstə alqışlayaraq yekdilliklə qəbul ediblər.

Xidmətdə fərqlənən ordu gənclərinin və şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəldilməsində xidmətləri olan ictimaiyyət nümayəndələrinin bir qrupu Müdafiə Nazirliyinin hədiyyələri ilə mükafatlandırılıb.

Tədbirdə iştirak edən generallar ordu gənclərini təbrik edib, onlara arzu və tövsiyələrini bildiriblər.

Forumun sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında "İrəli Azərbaycan gəncliyi!" adlı bədii kompozisiya nümayiş etdirilib.

Forum başa çatdıqdan sonra Füzuli Rayon İcra Hakimiyyətinin başçısı bir qrup ordu gəncini qəbul edərək onlarla çay süfrəsi ətrafında səmimi söhbət edib, 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə onları mükafatlandırıb.

Azərbaycan Ordusu gənclərinin forumu iştirakçıları Horadiz şəhərinin görməli yerləri ilə tanışlıqdan sonra xoş təəssüratlarla öz hərbi hissələrinə yola düşüblər.

**AZƏRTAC-ın materialları əsasında**

# 2 Fevral - Gənclər Günü münasibətilə tədbirlər keçirildi

Heydər Əliyev adına Hərbi İnstitutun və Bakı Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə 2 Fevral - Gənclər Günü münasibətilə tədbir keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirin aparıcısı Günay Firudinqızı çıxış edərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan böyük zəfərdə Azərbaycan gənclərinin rolunun əvəzsiz olduğunu qeyd etdi: "Bu gün cəmiyyətin aparıcı təbəqəsi gənclərdir. Dövlətin apardığı gəncləşmə siyasəti bütün sahələrdə öz əksini tapır. 2020-ci il sentyabrın 27-də düşmənin genişmiqyaslı təxribatına cavab olaraq Ali Baş Komandanın əks-hücum əmrinin uğurla icra olunmasında da gənclərin rolunun əvəzsiz olduğunun şahidi olduq. İllər əvvəl doğma torpaqlarından didərgin düşən gənclər Vətən müharibəsi zamanı igidlik və qəhrəmanlıq göstərərək düşmən işğalına son qoydular".






Heydər Əliyev adına Hərbi İnstitutun rektorunun müavini Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov tədbirdə çıxış edərək Ulu Öndər Heydər Əliyev tərəfindən 2 Fevral - Gənclər Gününün təsis edilməsinin tarixi barədə geniş məlumat verdi. Zabit bu günün təntənəli surətdə qeyd olunmasının məhz Azərbaycan xalqının Ümummilli Lideri Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu, Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsasının qoyulduğunu və bu gün də həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğuladı: "Heydər Əliyevin 1997-ci il fevralın 1-də imzaladığı Sərəncama əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Ulu Öndərin çıxışlarının birində qeyd etdiyi "Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun" fikri bu gün öz əksini tapır. Savadlı, vətənpərvər gənclərimiz ölkəmizi hər yerdə layiqincə təmsil edirlər. Gənclər bu gün ordu sıralarında Vətən qarşısında borclarını yerinə yetirmək üçün ləyaqətlə xidmət edir, hərb sənətinin sirlərinə mükəmməl yiyələnirlər. Hər bir sahədə olduğu kimi, orduda da idarəçilik qabiliyyəti olan gənclər mühüm vəzifələrdədirlər. Bütün bunlar dövlət rəhbərliyinin gənclərə olan inam və etimadının bariz nümunəsidir", - deyə N.Mövlanov bildirdi.

Daha sonra tədbirdə incəsənət xadimləri şəxsi heyət qarşısında konsert proqramı ilə çıxış etdilər.

Sonda Heydər Əliyev adına Hərbi İnstitutun rektorunun şəxsi heyətə fəxri fərmanlar təqdim olundu.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**



2 Fevral - Gənclər Günü münasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilən tədbirdə liseyin zabitləri, kursantları, müəllimləri, təhsil ocağında çalışan mülki işçilər iştirak edirdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə tədbir açıq elan edildi.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rəşad İbrahimov Gənclər Gününün yaranması ilə bağlı tədbir iştirakçılarına məlumat verdi. Dedi ki, 1 fevral 1997-ci ildən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sərəncamı ilə respublikamızda hər il 2 Fevral - Gənclər Günü kimi qeyd olunur. Bu, Ulu Öndərin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğının ən böyük təzahürüdür.

Ötən illər ərzində gənclərimizin idman, təhsil, elm və başqa sahələrdə əldə etdiyi uğurlar çox sevindiricidir. Bu gün gənclərimizin böyük hissəsinin çalışdığı, xidmət etdiyi sahələrdən biri də ordu sıralarıdır. Son illərdə bu sahədə böyük uğurlarımız olub. Otuz ilə yaxın əbədi və əzəli torpaqlarımız Azərbaycan Ordusu, Azərbaycan gəncləri tərəfindən Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında azad edildi. 44 gün davam edən İkinci Qarabağ müharibəsi uğurla sona yetdi. Xalqımızın və gənclərimizin ən böyük uğuru, məhz, erməni silahlı dəstələrini işğal etdikləri ərazilərdən qovmaq oldu. Bundan sonra Azərbaycan Ordusunun, gəncliyin qarşısında dayanan ən ümdə vəzifə Vətənimizin ərazi bütövlüyünə və xalqına qarşı təcavüzün qarşısını qətiyyətlə almaqdır.

Gənclərin ictimai-siyasi həyatda, idmanda, elmdə qazandığı uğurlarla bağlı Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarından hissələr, həmçinin müxtəlif illərdə gənclərlə keçirdiyi görüşlərdən ibarət videoçarx nümayiş olundu.

Tədbirin sonunda mədəniyyət işçiləri vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən mahnılar ifa etdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) təşkilatçılığı ilə 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında tədbir keçirildi.

Tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni oxundu.

Tədbirdə çıxış edən BHİK-in sədr müavini İxtiyar İsayev Gənclər Gününün təntənəli surətdə qeyd olunmasının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu, Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsasının qoyulduğunu vurğuladı. Ulu Öndərin gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşdığını, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirləri daim diqqətdə saxladığını, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirdiyini qeyd etdi.



Sədr müavini vurğuladı ki, dövlət başçısı İlham Əliyev bütün sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də Ulu Öndərin siyasətini uğurla davam etdirir. Prezident İlham Əliyevin Ümummilli Liderin gənclər siyasətinə sadiqliyinin, bu sahəyə böyük diqqət göstərməsinin nəticəsidir ki, bu gün ölkəmizdə gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yüksək şərait yaradılır və bu istiqamətlərdə böyük addımlar atılır.

Daha sonra çıxış edən təşkilat sədrləri Stepan Kropoçev, Gülnarə Kələntərova, Yaqut Həsənova və digərləri Müdafiə Nazirliyinin hərbi hissə və müəssisələrində komitə üzvü olan gənclərin hərbi qulluqçularla çiyin-çiyinə çalışdığını, ordumuzun uğurları üçün bütün potensial və imkanlarından səylə istifadə etdiklərini vurğuladılar. 2023-cü ilin "Heydər Əliyev İli" elan olunmasından danışan komitə üzvləri Azərbaycan gəncliyi üçün müstəqil Azərbaycanın qurucusu və memarı olan Heydər Əliyev irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından ən gözəl nümunə olduğunu qeyd etdilər. Bu baxımdan Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi çox mühüm addımdır. Müasir Azərbaycanın əsas qurucularından olan dahi şəxsiyyət Heydər Əliyev bu gün də gənclərimizin yaddaşında və ürəyində yaşayır.

Tədbir iştirakçıları, həmçinin şanlı, tarixi zəfərimizlə başa çatan ikinci Qarabağ müharibəsində cəbhədə döyüşən gənclərin rəşadətindən, vətənpərvərliyindən, igidliyindən, eləcə də arxa cəbhədə olanların ordumuza dəstəyindən söz açdılar. Bu qələbənin Azərbaycan gəncinin sonsuz Vətən sevgisinin, iradəsinin, qətiyyətinin və yüksək döyüş hazırlığının qələbəsi olduğunu vurğuladılar. Haqq savaşında şəhadətə yüksələnlərin əziz xatirəsini dərin ehtiramla yad edərək, Allahdan ailə üzvlərinə səbir, qazilərimizə şəfa dilədilər.

Tədbirin sonunda komitənin sədr müavini İxtiyar İsayev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev və Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Zakir Müslümov adından bütün gənc həmkarlarını, həmçinin Azərbaycan Ordusunun bütün hərbi qulluqçularını, gənclər günü münasibətilə təbrik edərək, onlara möhkəm cansağlığı, ailə səadəti və işlərində yeni-yeni müvəffəqiyyətlər arzuladı.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur

**Suallar:**
**1. Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.**
**2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur.**

## Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin tələblərinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir.

Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müqəddəscəsinə və sarsılmaz surətdə riayət etməyə, Hərbi andı yerinə yetirməyə, intizamlı, vicdanlı, doğruçu və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını da əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.

Hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli və vicdanla yerinə yetirməli; hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli; ona tapşırılmış silahları, döyüş texnikasını və digər texnikanı mükəmməl bilməli, həmçinin hərbi əmlakı və xalq əmlakını qorumalı; ağlabatan təşəbbüslər göstərməli; hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməli; döyüşçü yoldaşlığına sadiq olmalı, öz yoldaşlarına sözü və işi ilə kömək etməli, onları nalayiq hərəkətlərdən çəkindirməli, həyatını əsirgəmədən təhlükədən xilas etməli, sayıq olmalı, hərbi və dövlət sirlərini ciddi surətdə saxlamalıdır.

Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu Vətən qarşısında müqəddəs borcunu dərindən dərk edərək hərbi biliyə dərindən yiyələnməli və daim döyüş hazırlığını təkmilləşdirməlidir.

Cənubi Qafqazda strateji mövqeyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir.

Döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil silahlı toqquşmadır. O, hərbi hissə və bölmələrin taktiki fəaliyyətlərinin əsas forması olmaqla, şəxsi heyətin mənəvi və fiziki qüvvələrinin hərtərəfli sınağıdır. Onun uğuru əsasən, döyüşü aparmaq üçün insanların cəsarətindən, dözümlülüyündən, mənəvi keyfiyyətlərindən, hazırlıq səviyyəsindən və texnikanın hazırlığından asılıdır.

Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir. Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Bu döyüşdə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Əməliyyatların qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi-döyüş keyfiyyətləri, onun qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır.

1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə, döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə Azərbaycan Ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzi döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını zəif bilmələri və bu imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə müstəqilliyin ilk günlərindən ordunun yaradılması prosesinin bilavasitə döyüşlər getdiyi dövrdə formalaşması, Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin ağır günlərində ikinci dəfə hakimiyyətə gəlişi Silahlı Qüvvələrdə dəmir nizam-intizam yaratması, əsl ordu quruculuğuna start verməsi ilə nail olundu. Bunun məntiqi nəticəsi olaraq Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun qəhrəman döyüşçülərinin məkrli düşmənin hücumlarının qarşısını alaraq cəbhədə əks-hücum əməliyyatları həyata keçirmiş və bir sıra yaşayış məntəqələrimizi erməni silahlı dəstələrindən azad etdilər. Qısa zaman kəsiyində peşəkar, nizam-intizamlı, hərb sənətinin bütün incəliklərinə malik olan yüksək səviyyəli ordu yaradıldı. Azərbaycan hərbçiləri xarici ölkələrin, xüsusilə Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə başlayan gündən daim yanımızda olan, öz təmənnasız dəstəyini nümayiş etdirən dost-qardaş Türkiyənin yüksək səviyyəli ali hərb məktəblərinə oxumağa, təlimlərdə iştirak edərək təcrübə keçməyə göndərildilər. Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhval-ruhiyyəsinə malik olmasının nəticələri özünü 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda qısamüddətli döyüşlər zamanı işğalçı qüvvələrə sarsıdıcı zərbələr endirərək onu geri çəkilməyə məcbur etməklə göstərmişdir. Vətən müharibəsi isə işğalçı Ermənistan ordusunun Azərbaycan Ordusu tərəfindən tamamilə darmadağın olunması ilə və işğal altında qalan ərazilərimizin azad edilməsi ilə nəticələndi. Ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. 2022-ci ildə Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdə erməni terror-təxribat silahlı dəstələrinə qarşı keçirilən Fərrux və "Qisas", sərhədin Kəlbəcər, Laçın, Daşkəsən istiqamətində Ermənistanın təxribatlarına cavab olaraq genişmiqyaslı hərbi əməliyyatlar şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını, yüksək vətənpərvərliyini, dövlətə sədaqətini, ordumuzun gücünü Ermənistan və onun havadarlarına, həmçinin bütün dünyaya göstərdi. Silahlı Qüvvələrimizin ötən son 20 ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanlarında təcəssümünü tapdı.

## Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Ordusunun sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə Hərbi and içir. Hərbi and hər bir hərbi qulluqçudan;

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməsini, Hərbi andın tələblərini yerinə yetirməsini, sayıq olmasını, Azərbaycanın mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsünün vəzifə borcunu dərindən dərk etməsini və inamla qorumasını, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməməsini;
- hərbi işi vicdanla öyrənməsini, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlamasını, öz vəzifələrini nümunəvi yerinə yetirməsini, hərbi nizamnamələrin tələblərini möhkəm bilməsini və vicdanla yerinə yetirməsini;
- əmr və göstərişləri sözsüz, tez və vaxtında yerinə yetirməsini, igid və intizamlı olmasını, nalayiq hərəkətlər etməməsini və yoldaşlarını da belə hərəkətlərdən çəkindirməsini;
- dövlət sirrini qorumasını, böyüklərə hörmət etməsini, hərbi nəzakət, davranış qaydalarına ciddi əməl etməsini;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilməsini;
- əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir.

Ümummilli Liderimiz Heydər Əliyevin hərbi qulluqçularla görüşündə dediyi "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən" sözləri bu gün də Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, döyüş texnikası və digər texnikanı yaxşı bilsin. Bu gün regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının və müdafiə nazirinin 2023-cü tədris ili üçün Azərbaycan Ordusu qarşısında qoyduqları əsas vəzifələrdən biri də hərbi hissə və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hərbi hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla, özünü Vətəninin müdafiəsi üçün hazırlayır.

**Qeyd:** *Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər müasir texnika və silahlara, sursata malikdirlər. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzuda hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırmağa, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, Azərbaycan dövlətinin mənafeyini qorumağı, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərmək məsuliyyətlərini şüurlu surətdə dərk etmələri izah edilməlidir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Hərbi hissədə qartopu oyunu

Ağır-ağır qar yağır. Qar dağı-daşı, yal-yamacı bürüyüb. Hələ yapıxmayan qarda yeriyənlər könüləyatımlı bir bəstəylə yan-yanaşı gedir. Bu bəstə ayaqlarla qarın təmasından yaranan təbii bəstədi, təbiətin bəstəsidi. Özümüz də eşitmişik, eşidirik, başqalarının yerişindən də eşitmişik, eşidirik...



Qar yağır. Qarda qartopu oynayanların həvəsini, marağını görmək də xoşdu, o həvəsə, o marağa həsəd aparmaq da. Bu il bu həvəsi, bu marağı dağlara söykənən hərbi hissələrin birində, əsgərlərin əhatəsində də gördük. Hamımıza tanış məqamlar kimi kövrəkliklə, bir qədər də qürurla izlədik; əsgərlər qartopu oynayırdı. Digərlərindən fərqli olaraq onların qar topu da fərqli idi, atışları da sərrastıydı. Qar topları ünvanından yayınmırdı. Elə bil əsgərlərin qar topu düzəltdiyi qar bizim əllərimizi üşüdən qar deyildi...

Kimin kimə qar topu atacağını gümanlamaq çətindi. Bu, əsgərlərin tarixi min illərlə səsləşən qış oyununa diqqətini daha da artırır. Özünü qarşıdakıların da atışından gözləməlidi, sağdakıların da, soldakıların da. Eyni vaxtda neçə nəfərin qar topundan yayınmalıdı, neçə nəfərə qar topu atmaq üçün məqam girəvələməlidi. Maraqlı anlar maraqla yaşanılır; əsgərlərin sayı qədər komanda var. Burada qalib olmayacaq. Qalib səmimiyyət olacaq, əsgəri dostluq olacaq. Hərbi xidmət həm də bu anları ilə yadda qalacaq...

Əsgər Şamil Bayramov deyir ki, son illər qar az yağır. Ona görə də hər birimizin qar həsrəti olub. Qar həsrəti təkcə qar görmək deyil. Uşaqlığımızda, yeniyetməliyimizdə qarda sürüşərdik, qartopu oynayardıq. Bu ilin qışı bizə ötənləri də xatırlatdı. Əsgər Cəlal Zeynalov əsgər yoldaşının fikirlərini hərbi xidmətdə döyüş hazırlığının vacib amillərindən olan fiziki hazırlıqla əlaqələndirir:

- Bu, həm asudə vaxtımızda əyləncədir, həm də fiziki hazırlığımızda vasitə. Komandirimizin təklifi ilə bugünkü asudə vaxtımızı belə keçirdik. Könlümüzcə oldu.

Əsgər Cəlal Zeynalov onu da deyir ki, ilk dəfə qartopu oynayanda əlcəkdə olsam da, əlim üşümüşdü. Evdə nənəm əllərimi hərarətləndirmək üçün xeyli hovxurmuşdu. "Soyuqdan qorunmağın yolu soyuğa alışmaqdı...", - demişdi. Əsgər Allahyar Baratov əsgər yoldaşının fikirlərini könüləyatımlı kəlmələrlə tamamlayır:

- Soyuqdan qoruna-qoruna soyuğun gözünü qorxutmuşuq.

"Bu, İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanan Azərbaycan əsgərinin qüdrətidir", - deyirəm. Əsgərlərin baxışlarında incə bir məmnunluq gəzişir.

Kapitan Taleh Alcəfərov deyir ki, hərbi hissəmizin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Biz buna müntəzəm keçirilən təlimlər, dərslər, söhbətlər vasitəsi ilə nail olmuşuq. Bu gərəkli prosesin dönməzliyi onların yüksək fiziki hazırlığı ilə də şərtlənir. Bu gün təbiətin səxavətindən də istifadə etməyi qərara aldıq - asudə vaxtı həm də idman tədbiri formatında təşkil etdik. Əsgərlərimiz bizim qərarımızdan razı qaldılar, biz əsgərlərin bu tədbirdə iştirakından. Əsgərlər qış oyununda həvəslə iştirak etdilər. Güman edirəm ki, bu gün onların ömür səhifəsinə xoş xatirətək yazıldı...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

---

*Maraq dünyamız*

# Krallar Vadisi



Misirin Əl-Üqsür şəhərində yerləşən "Krallar Vadisi" və ya "Fironlar Vadisi" (Vadi əl-Muluk) - dünya əhəmiyyətli arxeoloji ərazidir. Vadi ərazisində eramızdan əvvəl II minillikdə Misiri idarə edən fironların və onlara yaxın olan əyanlardan bəzilərinin sərdabəsi var. Burada yeraltı katakombalar heyrətamiz freska və sirli yazılarla bəzədilib.

İçində minlərlə qiymətli artefaktın olduğu məşhur Tutanxamon sərdabəsi də məhz burada aşkar edilib. Tutanxamon sərdabəsi, 1922-ci ildə ingilis həvəskar arxeoloqu Houard Karter tərəfindən Misirdə Krallar Vadisində tapılmış qədim bir qaya sərdabəsidir. Uşaq firon olaraq da bili-



nən XVIII sülalənin hökmdarı olan Tutanxamonun adına inşa edilən sərdabə, içindəki əsərləri və xəzinə ovçuları tərəfindən dağıdılmamış strukturuna görə, Misirşünaslığın ən vacib kəşflərindən biri hesab olunur.

Krallar Vadisində dəfnlər təxminən eramızdan əvvəl XVII-XI əsrlərdə həyata keçirilib - bu müddət ərzində misirlilər əsl "Ölülər Şəhəri" yaratmağı bacarmışdılar. Alimlər, Krallar Vadisini planetin ən əhəmiyyətli və görməli yerlərindən biri hesab edirlər. Buna görə də ərazi 1979-cu ildə UNESCO-nun siyahısına daxil edilib.

Hər il dünyanın hər yerindən minlərlə turist Tunc dövrünə aid bu gözəl sənət əsərlərinə baxmaq üçün qədim nekropola axın edir.

### Krallar Vadisinin tarixi

Qədim və Orta Krallığın fironlarının əzəmətli qəbirləri dəfn edildikdən dərhal sonra müasirləri tərəfindən amansızcasına talan edilirdi. Məhz buna görə də Yeni Krallığın monarxları məzarlarını daha sakit və qorunan yerdə tikməyə qərar verdilər. Qədim Teben şəhəri (Əl-Üqsür) yaxınlığındakı dağlar arasında səhrada uyğun dərə tapıldı və bu yer Krallar Vadisi adlandırıldı. E.ə. XVI əsrdən dərə 500 il ərzində kral nekropolu kimi istifadə edilib.

Krallar Vadisindəki nekropol xüsusi döyüşçü dəstəsi tərəfindən qorunsa da, quldurlar illər boyu sərdabələrə gizlicə girmək fürsəti tapmışlar.

Bu günə qədər arxeoloqlar Krallar Vadisində 63 sərdabə aşkar ediblər, sonuncu kəşf 2006-cı ildə edilib.

### Maraqlı faktlar

Vadidə ən məşhur tapıntı Tutanxamonun sərdabəsidir. Məzarda aşkar edilən qiymətli xəzinələr və artefaktlar hazırda Qahirə Milli Muzeyində qorunur. Otaq çox böyük deyil, yəqin ki, fironun gənc yaşda ölməsi və məzarın tamamlanmaması ilə əlaqədardır, lakin divarlarda maraqlı qədim rəsmlər çəkilib.



Krallar Vadisində ən uzun sərdabə I Setinin məzarıdır. Sərdabənin divarlarında, freskaları mükəmməl qorunub saxlanılan dəhliz və otaqlar var.

Ən gözəl və bəzəkli sərdabələrdən biri görkəmli Misir fironu III Tutmosun məzarıdır. Girişi dərə səviyyəsindən 30 metr hündürlükdə yerləşən sərdabəyə sıldırım enişdən hər kəs daxil ola bilmir.

Turistlər arasında ən populyarı II Amenhotepin məzarıdır. Dəhlizlərin gözəlliyi



və bəzəyi baxımından Tutmosun məzarına kifayət qədər bənzəyir.

Vadidə ən böyük məzarlardan biri II Ramzesin məzarıdır. Burada unikal heroqlif rəsmlər, freskalar və relyeflər qorunub saxlanılıb.

Krallar Vadisindəki dəfnlər qədim Misir dünyasının əzəmətini və memarların yüksək səviyyəsini əks etdirir.

Krallar Vadisi təkcə Misirin deyil, bütün bəşəriyyətin tarixi anbarıdır. İndiyədək burada qazıntılar aparılır, alimlər nadir əşyalar tapır və yeni qəbirlərin axtarışını davam etdirirlər.

**"Azərbaycan Ordusu"**

---

# Xəbərlər: hadisələr, faktlar

## İran hərbi obyektə hücumun məsuliyyətini İsrailin üzərinə qoyub



İran Müdafiə Nazirliyinin İsfahandakı obyektinə hücumla bağlı ilkin araşdırma göstərib ki, hücuma görə İsrail məsuliyyət daşıyır.

Bu iddianı İranın Birləşmiş Millətlər Təşkilatındakı daimi nümayəndəsi Amid Səid İrəvani irəli sürüb. Daimi nümayəndə BMT Təhlükəsizlik Şurasına və Baş katibə ünvanladığı məktubda İsrail hakimiyyətinin döyüşkən bəyanatlarını mühakimə etməyə çağırıb.

İran mediasının məlumatına görə, yanvarın 29-na keçən gecə İsfahan şəhərindəki hərbi obyektə dronlarla hücum edilib.

## Almaniya hava hücumundan müdafiə sistemini gücləndirmək üçün 17 milyard avro ayırır



Almaniya hökuməti hava hücumundan müdafiə sistemini gücləndirmək üçün təxminən 17 milyard avro ayırmağı planlaşdırır.

Bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.

Bildirilib ki, Berlinin planlarına 4 milyard avro ayırması planlaşdırılan İsrailin "Arrow 3" raketdən müdafiə sistemi və 10 milyard avro dəyərində ABŞ "Patriot"ları daxildir.

"Almaniya bir neçə hərbi məhsul istehsalçısı ilə onların çoxqatlı raket əleyhinə qalxanın yaradılmasında iştirakına dair danışıqlar aparır ki, bu da 17 milyard avroya başa gələ bilər", - deyə agentliyin açıqlamasında bildirilir.

## Fransa Ukrayna əsgərlərinə Polşada təlim keçəcək



Fransa Avropa İttifaqının (Aİ) Ukraynaya "Hərbi dəstək missiyası" çərçivəsində Ukrayna qüvvələrinə təlim keçmək üçün Polşaya 150 təlimçi əsgər göndərəcək.

Bu barədə Polşa Xarici İşlər Nazirliyinin sözçüsü Lukas Jasina rəsmi tviter hesabında yazıb.

O xatırladıb ki, Aİ 2022-ci ilin oktyabrında üzv dövlətlərdəki mərkəzlərdə 15 min əsgərə təlim keçmək məqsədilə Ukrayna üçün "Hərbi yardım missiyasını" yaradıb.

Sözügedən missiya çərçivəsində iki əməliyyat komandanlığından birinin Polşada, digərinin isə Almaniyada olduğunu ifadə edən L.Jasina bunları qeyd edib: "Fransa Aİ-nin Ukraynaya "Hərbi yardım missiyası" çərçivəsində Polşaya 150 əsgər göndərəcək. Bu əsgərlər hərbi əməliyyatlarda iştirak edəcəklər".

## Ukrayna ABŞ-dan alacağı uzaqmənzilli raketlərlə hədəfləri dəqiqliklə vura biləcək



ABŞ Ukraynaya 2,2 milyard dollarlıq yeni hərbi yardım paketi hazırlayır.

Hərbi yardım paketinə daha uzunmənzilli raketlər, digər sursat və silahların daxil olacağı gözlənilir. ABŞ-İsveç istehsalı olan "Ground Launched Small Diameter Bomb" yüksəkdəqiqlikli idarə olunan bu raketlər HIMARS sistemlərindən buraxılır və onlarla kilometr uzaqlıqdakı hədəfləri dəqiqliklə vura bilir.

Ukraynanın xarici işlər naziri Dmitri Kuleba, həmçinin bildirib ki, Kiyev "tank koalisiyası" üzv olan ölkələrdən ilk tədarüklər zamanı 120-dən 140-dək Qərb tankı almağı gözləyir. Onun sözlərinə görə, hazırda bu koalisiyanın 12 üzvü var.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Hüsniyyə İDRİSOVA | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 87<br>Nüsxə 4661 |